**AZƏRBAYCAN RESPUBLİKASI**
**DAXİLİ İŞLƏR NAZİRLİYİ**
**POLİS AKADEMİYASI**

İxtisasın şifri və adı: 050206 "Hüquqşünaslıq"

# *"RİTORİKA"*

## *FƏNN PROQRAMI*

*(bakalavr hazırlığı üzrə əyani təhsil üçün)*

**BAKI-2022**

**Tərtib etdi:**

DİN-in Polis Akademiyasının "Dil hazırlığı" kafedrasının əməkdaşı, Qabaqcıl təhsil işçisi, filologiya üzrə fəlsəfə doktoru — **Əliyeva Fərqanə Aydın qızı**

**Rəyçilər:**

BSU-nun "Azərbaycan ədəbiyyatı" kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru — **Əliyeva Gültəkin Ağacan qızı**

BDU-nun "Azərbaycan dilçiliyi" kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru — **Şiriyev Fikrət Abuzər oğlu**

DIN-in Polis Akademiyasının "İctimai elmlər" kafedrasının rəisi, polis polkovnik-leytenantı, tarix üzrə fəlsəfə doktoru — **Məcnunov Rəhim Məmmədağa oğlu**

DOI https://doi.org/10.36719/0832/2025

# ÖN SÖZ

**Söz gözəl olursa-olsun nə qədər,**

**Pis əda o sözü tamam məhv edər.**

***Nizami Gəncəvi***

İnsanın daxili aləmi tamamilə, yaxud qismən nitqdə əks olunur: bu nitq, məntiqi düşüncə, emosiyalar, intuisiya və təxəyyül, dəyərlər və əxlaq dünyası, özünütəhlil və özünüqiymətləndirmə, nəhayət, inam dünyasıdır və bütün bu zənginliklər daxili və xarici nitqlə, onun mədəniyyəti ilə bağlıdır. Ritorika dedikdə nitq texnikasına sərbəst və qüsursüz şəkildə malik olmaq, yaddaşın lazım olan sözü ani olaraq və dəqiq şəkildə seçməyə hazır olması, tələffüz qüsurlarının olmaması, nitq tənəffüsünün və səsin inkişaf, nitqin zəngin, məntiqi qanunlara tabe olması başa düşülür. Bu cür nitqə hər bir ziyalı, hər bir savadlı insanın sahib olması üçün “Ritorika” fənninin böyük əhəmiyyəti vardır.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan dilinə sonsuz sevgisi və bu dilin inkişafı naminə həyata keçirdiyi irimiqyaslı tədbirlər, qəbul edilən qanun, fərman, sərəncam və qərarlar dilimizin sabahına işıq salmaqdadır. Fenomen şəxsiyyət H.Əliyevin bəlağətli nitqi hər bir insana örnəkdir.

23 may 2012-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair” Sərəncam vermiş, 09 aprel 2013-cü il tarixində bu barədə Dövlət Proqramını imzalamışdır. Sərəncamda və Dövlət Proqramında rəsmi dövlət dilinin hərtərəfli inkişafı, tətbiqi və tədrisi geniş şəkildə tövsiyə

edilmiş, istiqamətlər göstərilmişdir. Burada Azərbaycan dilində nitq mədəniyyətinə xüsusi yer ayrılmış, bu sahənin öyrənilməsi və tədrisi önə çəkilmişdir.

Hər bir insan öz fikirlərini dəqiq, yığcam və gözəl şəkildə ifadə etməyi bacarmalıdır. «Ritorika», yaxud «Natiqlik sənəti» və ya «bəlağət elmi» kimi fənlər məhz buna kömək etmək məqsədi güdür. Tədris fənni kimi ritorikanın ali məktəbdə başlıca vəzifəsi tələbənin cəmiyyətin layiqli üzvü, işinin incəliklərinə yaxşı bələd olan, şüurlu mövqeyə malik, yüksək mənəvi-ictimai normaları təbliğ edən və nitq ünsiyyətini təşkil etmək üsullarına yiyələnmiş şəxsiyyətin yetişdirilməsi kimi sosial borcu yerinə yetirməsidir.

Ana dili yalnız ünsiyyət vasitəsi deyil, xalqın dünyagörüşünün, düşüncə tərzinin, ümumən mənəvi varlığının ifadə vasitəsidir. Cəmiyyətdə işgüzar ünsiyyət, nitqin etik qaydaları, həmsöhbətin tiplərinin müəyyənləşdirilməsi və ona uyğun kommunikasiyanın qurulması dövrün əsas tələbidir.

İxtisasını tam mənimsəmiş peşəkar kadrlar yetişdirən Polis Akademiyasında da “Ritorika” fənninin tədrisindəki başlıca məqsəd hər bir kursant üçün müasir Azərbaycan dilinin ədəbi dil normaları, üslubi xüsusiyyətlərini mənimsətməklə dil qaydalarına uyğun nitq hazırlamaq, çıxış etmək bacarıqlarını formalaşdırmaq və bu zaman jest və mimikalardan düzgün istifadəni bilmək bacarığının formalaşdırılmasıdır.

Fənnin tədrisi zamanı əldə olunacaq bilik, bacarıq və vərdişlərin Polis Akademiyası kursantlarının ali təhsilli peşəkar mütəxəssis kimi gələcək fəaliyyətlərində, insanlarla ünsiyyət qurarkən onlara düzgün dəyər vermək istiqamətində aparılan işlərdə də gərəkli olacaqdır.

“Ritorika” fənninin tədrisinin nəticəsində kursantlar öz fikir və düşüncələrini həm yazılı, həm də şifahi formada ifadə etməyi, çıxış hazırlamağı, polemika bacarıqlarına yiyələnməyi öyrənəcəklər.

# Mövzu-təqvim planı

| Sıra №-si | *Mövzunun adı* | Mövzuya ayrılmış vaxt | *Dərsin növü* | | | |
|---|---|---|---|---|---|---|
| | | | Mühazirə | Seminar | Təcrübə | Yoxlama nəzarət |
| *1* | *2* | *3* | *4* | *5* | *6* | *7* |
| 1. | ***<u>Mühazirə 1</u>*.** "Ritorika" fənninin predmeti, məqsəd və vəzifələri, tarixi, başqa elmlərlə əlaqəsi. Natiqlik sənəti, sahələri və əsas xüsusiyyətləri. | 2 | 2 | | | |
| 2. | Natiqlik sənətinin tarixi, başqa elmlərlə əlaqəsi. Mədəni nitqin xüsusiyyətləri. | 2 | | 2 | | |
| 3. | **Praktik iş:** Natiqliyin sahələri. Məhkəmə natiqliyi. | 2 | | | 2 | |
| 4. | Təfəkkür mədəniyyətinin nitqə təsiri. Bədii ifadə vasitələrindən nitqdə istifadənin əhəmiyyəti. **Praktik iş:** Bədii əsərlər üzrə | 2 | | | 2 | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 5. | ***<u>Mühazirə 2.</u>*** Üslub və üslubiyyat. Ədəbi dilin normaları. Nitqin növləri, formaları, etiketləri. | 2 | 2 | | | |
| 6. | Üslubiyyatın tarixi, nitqin üslubları və ədəbi dilin normaları | 2 | | 2 | | |
| 7. | **Praktik iş:** Ədəbi dilin normalarına riayət etməklə, nitq etiketlərindən istifadənin əhəmiyyəti. | 2 | | | 2 | |
| 8. | **Praktik iş:** Spontan nitq bacarıqlarının inkişaf etdirilməsi | | | | 2 | |
| 9. | **Kollokvium. "**Azərbaycanda natiqlik sənətinin tarixi" və "Heydər Əliyev və natiqlik" mövzularında təqdimat | 2 | | | | 2 |
| 10. | ***<u>Mühazirə 3.</u>*** Ünsiyyət vasitələri və onların nitqdə rolu, əhəmiyyəti. Nitqin məqsədinə görə prinsipləri və növləri. | 2 | 2 | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 11. | Verbal və qeyri-verbal ünsiyyət vasitələri. Nitqin məqsədinə görə növləri. | 2 | | 2 | | |
| 12. | **Praktik iş:** Nitqdə sözlü və sözsüz bağlantı | 2 | | | 2 | |
| 13. | **Praktik iş:** Ünsiyyət prosesinin ritorik əsasları. Nitq və səs üzrə iş | 2 | | | 2 | |
| 14. | **<u>Mühazirə 4.</u>** Nitq fəaliyyəti. Nitqin obrazlılığı və emosional ifadəliliyi. Çıxışın kompozisiyası. Polemika ustalığı. | 2 | 2 | | | |
| 15. | Yaranış mərhələsində ritorik fəaliyyət. Çıxışın quruluşu. Polemik bacarıqlar. | 2 | | 2 | | |
| 16. | **Praktik iş:** çıxış hazırlamaq. Çıxışın kompozisiyasına əməl etmək. | 2 | | | 2 | |
| 17. | **Praktik iş**: Çıxışda emosionallıq, obrazlılıq, sitatlardan istifadə. | 2 | | | 2 | |
| 18. | **Kollokvium.** Çıxışın hazırlanması bacarıqlarının | 2 | | | | 2 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | və analitik düşüncənin yoxlanması. | | | | | |
| 19. | **<u>Mühazirə 5</u>.** Kütlə qarşısında nitq. Natiqin xarici görünüşü. Nitq texnikası. Diskussiya mədəniyyəti. | 2 | 2 | | | |
| 20. | Kütlə qarşısında nitqin qaydaları və əsas vasitələri. | 2 | | 2 | | |
| 21. | **Praktik iş**: Bədii parçalar üzərində nitq texnikasının həyata keçirilməsi. | 2 | | | 2 | |
| 22. | **Praktik iş**: Debat. Əsaslandırma bacarığının inkişaf etdirilməsi. | 2 | | | 2 | |
| 23. | **Kollokvium. Nəzəri biliyin qiymətləndirilməsi.** | 1 | | | | 1 |
| | **CƏMİ:** | 45 | 10 | 10 | 20 | 5 |

## ***Mühazirə № 1*. "Ritorika" fənninin predmeti, məqsəd və vəzifələri, tarixi, başqa elmlərlə əlaqəsi. Natiqlik sənəti, sahələri və əsas xüsusiyyətləri.**

Vaxt - 8 saat
Mühazirə - 2 saat
Seminar -2 saat
Təcrübə -4 saat

### Mövzunun qısa məzmunu:

"Ritorika" fənninin predmeti, məqsəd və vəzifələri. Nitq ritorikanın predmeti kimi. Ritorika elm və bəlağət sənəti kimi. Natiqlik sənəti sosial hadisə kimi və onun meydana gəlməsi. Qədim Yunanıstan və Romada ritorika - yunan və Roma natiqlərinin ritorikanın inkişafında rolu. Yunan ritotikasına əsasən nitqin mərhələləri. Qərbdə, Şərqdə və Azərbaycanda ritorikanın inkişafı və özünəməxsus xüsusiyyətləri. Görkəmli natiqlər: Aristotel, Demosfen, Sokrat və başqaları.

Ritorikanın başqa elmlərlə əlaqəsi - dilçilik, tarix, ədəbiyyatşünaslıq, etika, estetika, psixologiya, məntiq, pedaqogika, fiziologiya ilə əlaqəsi.

Natiqliyin sahələri. Nitq norması. Təfəkkür mədəniyyəti. Nitqin məntiqi. Natiqlik sənətinin əsas xüsusiyyətləri. Nitqin əsas keyfiyyətləri - düzgünlük, aydınlıq, məntiqlilik, yığcamlıq, səlislik, zənginlik, canlılıq, ahəngdarlıq, sadəlik, dəqiqlik və s. [Ədəbiyyat: 1; 2; 3; 4; 5; 12; 13; 15; 16]

# *Mühazirə № 2.* Üslub və üslubiyyat. Ədəbi dilin normaları. Nitqin növləri, formaları, etiketləri.

Vaxt – 10 saat
Mühazirə - 2 saat
Seminar -2 saat
Təcrübə - 6 saat

## Mövzunun qısa məzmunu:

Üslub və üslubiyyat anlayışı, üslubiyyatın tarixi. Azərbaycanda üslubiyyatın bir elm sahəsi kimi yaranması və formalaşması. Üslubiyyatın ictimai və fərdi məzmun daşıması. Fərdi üslubun mahiyyəti, xüsusiyyətləri. Fərdi üslubun nümayəndələri. Funksional üslublarla qarşılıqlı əlaqəsi. Fərdi və funksional üslubların fərqli cəhətləri.

Müasir Azərbaycan dilinin funksional üslubları: bədii, elmi, publisistik, rəsmi-işgüzar və məişət üslubları. Funksional üslubların ortaq və fərqləndirici xüsusiyyətləri. Bu üslubların yaranma tarixi.

Ümumxalq dili, milli dil və ədəbi dil anlayışları. Ədəbi dilin formalaşması. Şifahi və yazılı ədəbi dil, növləri. Ədəbi dilin hamı tərəfindən başa düşülməsi, qəbul edilməsi, normalara əsaslanması.

Azərbaycan ədəbi dilinin normaları. Normaların sabitliyi.

Fonetik norma: sözün ədəbi dildə bir variantda tələffüz olunması və yazılması. Orfoqrafik və orfoepik norma.

Leksik norma: hər bir sözün öz yerində işlənməsi, nitqdə sinonimlərdən istifadə. Frazeoloji birləşmələr.

Qrammatik norma: nitq prosesində sözlər və cümlələr arasındakı əlaqənin düzgün qurulması.

Fonetik, leksik və qrammatik normaların yazılı və şifahi nitqdəki rolu. Fonetik, leksik və qrammatik normanın pozulması halları.

Ədəbi dil, dialekt, danışıq dili anlayışları və onların fərqli cəhətləri. Ədəbi dil və dialekt münasibətləri, qarşılıqlı təsiri.

Dil və nitq, onların mahiyyəti, oxşar və fərqli cəhətləri

Nitqin formaları: şifahi, yazılı, daxili, xarici, təşkil olunmuş və spontan nitq. Təşkil olunmuş nitq zamanı natiqin qarşısında duran vəzifələr. Spontan nitq bacarıqlarının inkişaf etdirilməsi. Monoloji və dialoji nitq formaları. Nitq formalarının xarakterik və fərqləndirici xüsusiyyətləri. Şifahi nitqin əsas xüsusiyyətləri. Şifahi nitq bacarıqlarının inkişaf etdirilməsi. Yazılı nitqin əlamətləri.

Nitq etiketləri, istifadə dairəsi. Müraciət etiketləri, müraciətin yaşa, vəzifə və münasibətə görə formaları. Müraciət formalarından düzgün istifadə olunması.

[Ədəbiyyat: 1; 5; 6; 7; 9; 10; 11; 12; 15; 16]

## *Mühazirə № 3.* Ünsiyyət vasitələri və onların nitqdə rolu, əhəmiyyəti. Nitqin məqsədinə görə prinsipləri və növləri.

Vaxt - 8 saat
Mühazirə - 2 saat
Seminar -2 saat
Təcrübə -4 saat

**Mövzunun qısa məzmunu:**

Ünsiyyət prosesi, ünsiyyətin funksiyaları, ünsiyyət prosesinin mərhələləri, ünsiyyət səriştəsi və strategiyaları. İşgüzar ünsiyyət və onun növləri.

Ünsiyyət vasitələri: verbal və qeyri-verbal vasitələr.

Verbal vasitələrin – səs, söz, sözün ifadəlilik keyfiyyətlərinin nitqdə rolu və əhəmiyyəti.

Qeyri-verbal vasitələri öyrənən elm sahələri – kinesika, takesika, proksemika – insan ünsiyyəti zamanı fəzada yerləşdiyi məsafə zonaları. (intim zona, fərdi zona, sosial zona, kütləvi zona).

Mimika və jestlərin növləri üzrə praktik işlərin keçirilməsi. İllüstrasiyaedici, tənzimləyici, emblemli, uyğunlaşdırıcı jestlər.

Nitqin məqsədinə görə prinsipləri və növləri: informasiya (məlumat) verən nitq, inandırıcı nitq, çağırışedici nitq, ruhlandırıcı nitq, əyləncəli nitq, fərdi (şəxsi) nitq.

[Ədəbiyyat: 8; 15; 20]

## *Mühazirə № 4.* Nitq fəaliyyəti. Nitqin obrazlılığı və emosional ifadəliliyi. Çıxışın kompozisiyası. Polemika ustalığı.

Vaxt – 10 saat
Mühazirə - 2 saat
Seminar -2 saat
Təcrübə - 6 saat

**Mövzunun qısa məzmunu:**

Nitq fəaliyyəti və nitq situasiyası. Nitq fəaliyyəti: yaranış mərhələsində ritorik fəaliyyət – nitqin məqsəd istiqamətinin formalaşdırılması, çıxış üçün material seçilməsinin əsas mənbələri, ədəbiyyat qaynaqları ilə səmərəli işə aid tövsiyyələr.

Nitqin obrazlılığı və emosional ifadəliliyi. Ritorik məcaz anlayışı. Metafora, alleqoriya, metonimiya, sinekdoxa, epitet, müqayisə, kinayə və s.

Çıxışın kompozisiyası: Materialın yerləşdirilməsi mərhələsində ritorik fəaliyyət. Kompozisiya anlayışı. Çıxışın quruluşu: giriş, əsas hissə, nəticə. Nitqin qurulması zamanı natiqin fəaliyyəti. Giriş və yekun hissənin vəzifələri və onların qurulması üsulları. Giriş və yekun hissənin müxtəlif növləri. Çıxışın əsas hissəsinin ətraflı şərhi üsulları və qarşısında duran vəzifələr.

Polemika anlayışı. Polemik bacarıqlar. Çıxışın mətnini necə hazırlamağın yolları, necə məşq etməli, çıxışdan əvvəl nə etmək və kağızdan oxuya necə hazırlaşmalı, suallara necə cavab verməli, mənfi münasibətə köklənmiş auditoriya qarşısında çıxışın xüsusiyyətləri.

[Ədəbiyyat: 1; 5; 14; 15; 16]

## ***Mühazirə № 5.*** **Kütlə qarşısında nitq. Natiqin xarici görünüşü. Nitq texnikası. Diskussiya mədəniyyəti.**

Vaxt – 10 saat
Mühazirə - 2 saat
Seminar -2 saat
Təcrübə - 6 saat

**Mövzunun qısa məzmunu:**

Nitq iştirakçılarının qarşılıqlı təsiri qanun. Dinləyici qrupunun müəyyənləşdirilməsi. Nitqdə irəli hərəkət və nitqin ünvanlandığı şəxsə meyli qanunu. Nitqin emosionallığı qanunu. Dinləyiciyə hörmət, ünsiyyətdən ləzzət almaq qanunu.

Kütlə qarşısında çıxışın ümumi qaydaları və bu nitqə veriilən tələblər. Kütlə qarşısında nitqin məntiqi və faktiki vasitələri.

Natiq obrazı şəxsiyyətin keyfiyyətlər sistemi kimi. Natiqin xarici görkəmi, davranış tərzləri, duruşu və jestləri. Natiqin jestlərinin əhəmiyyəti və jestlərdən istifadə edərkən qaydalar.

Nitq texnikasının mahiyyəti. Nəfəs, səs, artikulyasiyanın rolu. Nitq tənəffüsü, fasilə (pauza), diksiya, səs tembri, səsin sürəti, yüksəkliyi, tələffüzün aydınlığı nitq texnikasını təmin edən vasitələr kimi.

Diskussiya aparmaq bacarığı və onun formaları. Diskussiyanın gedişində psixoloji təsir. Diskussiyanın strategiyası. Diskussiyanın nəzər nöqtəsi: məzmunla bağlı diskussiya və onun təsir üsulları, mövqe ilə bağlı diskussiya və onun təsir üsulları. Əsaslandırmanın taktikası. Mübahisənin əxlaq kodeksi. Mövzudan yayınma üsulu. Güc tətbiq etməklə əsaslandırma üsulu. Dəlillərlə əsaslandırma: nümayiş əleyhinə dəlillər, şəxsiyyətə yönəldilən dəlillər. Əsaslandırmanın ritorik aspekti.

[Ədəbiyyat: 3; 4; 5; 15]

# ƏDƏBİYYAT SİYAHISI

## I Dərsliklər və dərs vəsaitləri


1. Abdinova R, Hüseynova N. “Azərbaycan dili və nitq mədəniyyəti”, Bakı - 2020
2. Abdullayev A. “Nitq mədəniyyəti və natiqlik sənəti”, Bakı-1981.
3. Abdullayev N., Z. Məmmədov “Nitq mədəniyyətinin əsasları”, Bakı- 2013.
4. Axundov A.”Dil və mədəniyyət”, Bakı-1992.
5. Babayev A. “Azərbaycan dili və nitq mədəniyyəti”, Bakı- 2011
6. Babayev A. “Müasir Azərbaycan dilinin funksional üslubları”, Bakı 2001.
7. Bayramov A., Məhərrəmov Z., İsgəndərzadə M. “Azərbaycan dili və nitq mədəniyyəti” (ali məktəb tələbələri üçün dərs vəsaiti), Bakı 2015.
8. Əhmədov Ş. “Mühazirəçilik məharəti, natiqlik sənəti”, Bakı 1985.
9. Əliyev K. “Nitq mədəniyyəti və üslubiyyatın əsasları”, Bakı 2001.
10. Heydər Əliyev dil haqqında və Heydər Əliyevin dili. Bakı 1998.
11. Həsənov H. “Nitq mədəniyyəti və üslubiyyatın əsasları” Bakı 2003.
12. Hüseynov S. S., Qaracayeva E. M. “Azərbaycan dili və nitq mədəniyyəti”, Bakı 2016.
13. Hüseynov S. S. “Nitq mədəniyyəti” Bakı 2010.
14. Mustafayeva S. “Nitqin inkişafı” Bakı 2011.
15. Şiriyev F. A. “Azərbaycan dilinin nitq mədəniyyəti və ritorika”, Bakı 2014.
16. Yusifov M. “Nitq mədəniyyəti”, Bakı 1998

17. Xəlilov B. “Azərbaycan dili antologiyası”, Bakı – 2013
18. Xəlilov B. “Dil – söz çələngi”, Bakı - 2013
19. Xəlilov B. “Dil, ədəbiyyat, mədəniyyət”, Bakı - 2013

## II Elmi məqalə

20. Azərbaycan dilinin nitq mədəniyyəti və ritorika. Qurbanova M. Azərbaycan dili və ədəbiyyatı tədrisi: Elmi-metodiki jurnal. №3, 2017-iyul-sentyabr. səh.11-17.